AMEA-nın Xəbərləri (biologiya və tibb elmləri), cild 69, №1, səh. 24-26 (2014).

Azərbaycan Florasında *Senecio* L. Cinsi Haqqında

S.O. Ağayeva, E.N. Novruzov*, S.C. Mustafayeva

AMEA Botanika İnstitutu, Badamdar şossesi, 40, Bakı AZ1073, Azərbaycan;
**E-mail: eldar_novruzov@yahoo.co.uk*

Məqalədə Azərbaycan florasında *Senecio* L. - Xaçgülü cinsinin taksonomik tərkibi, baş verən dəyişikliklər və müasir vəziyyəti haqqında məlumat verilir.

Açar sözlər: *Senecioneae, Senecio, xaçgülü, triba, cins, növ*

GİRİŞ

Senecioneae Cass. – Xaçğülükimilər tribası (*Asteraceae* Bercht. et J.Presl fəsiləsi) ilk dəfə A.Kassini (1819) tərəfindən, demək olar ki, müasir quruluşda, təsvir edilmişdir. Sonrakı alimlər tribanı daha geniş qəbul etmişdilər (Lessing, 1832; De Candolle, 1838). Sonralar yenidən A.Kassini (1819) sisteminə qayıdılmışdır (Bentham et Hooker, 1873; Hoffmann, 1892). XX əsrin ikinci yarısında Xaçğülükimilər tribasının tərkibində çox cüzı dəyişikliklər olmuşdur. K.Bremer (1994) tribanı 2 yarımtribaya bölmüşdür: *Senecionineae* Dumort. və *Tussilaginineae* Dumort. Ç. Cefri və Y.L.Cen (1984) isə tribanı 3 yarımtribaya bölmüşlər: *Tussilaginineae,* T*ephroseridineae* və *Senecionineae*. Sonralar Ç. Cefri (1992) hər üç taksonu *Senecionineae* yarımtribasında birləşdirmişdir. E.İ.Vibe (2000) Ç. Cefri və Y.L.Cen (1984) sistemini əsas götürərək Sibir üçün *Senecioneae* tribasının konspektini vermişdir.

Tədqiq etdiyimiz *Senecio* L. – xaçgülü cinsi də *Senecioneae* tribası və *Senecionineae* yarımtribasına məxsusdur. *Senecio* cinsi ilk dəfə K.Linney (1753) tərəfindən təsvir olunmuşdur.

Senecio cinsi çiçəkli bitkilər arasında ən böyük cinsdir. Ona Yer kürəsində 100-dən çox cinsdə cəmləşmiş 3000-ə qədər növ aiddir. Cinsə daxil olan növlər əsasən Cənubi Afrika, Aralıq dənizi, Asiya və Şimali Amerikanın mülayim ərazilərində yayılmışlar. Onun Qafqazda - 32, Azərbaycanda - 18 növünə rast gəlinir (Флора Азербайджана, 1961).

Tədqiqatlara və ədəbiyyat məlumatlarının (Флора Азербайджана, 1961; Флора СССР, 1961; “Конспект флоры Кавказа”, 2008; Əsgərov, 2011) təftişinə əsasən, müəyyən olunmuşdur ki, Azərbaycan florasında *Senecio* cinsinin taksonomik tərkibində bəzi dəyişikliklər olmuşdur (cədvəl 1.).

Cədvəldən göründüyü kimi, *Senecio caucasicus* “Флора СССР”-ə (1961) görə *Ligularia caucasicus,* S.K.Çerepanova (1995) görə *Dolichorrhiza caucasica*, “Конспект флоры Кавказа” (2008) və A.M.Əsgərova (2011) görə isə *Senecio caucasicus*, *S.lampsanoides* “Флора СССР”-ə (1961), K.Çerepanova (1995), “Конспект флоры Кавказа” (2008) və A.M.Əsgərova (2011) görə *S.lapsanoides, S.platyphyllus “*Флора СССР”-ə (1961) görə *S.platyphylloides,* S.K.Çerepanova (1995) görə *Adenostyles platyphylloides*, “Конспект флоры Кавказа” (2008) görə *S.platyphylloides* və A.M.Əsgərova (2011) görə isə *S.rhombifolius, S. subfloccocus* K.Çerepanova (1995), “Конспект флоры Кавказа” (2008) və A.M.Əsgərova (2011) görə *Tephreseris subfloccosa, S. caucasigenus* K.Çerepanova (1995), “Конспект флоры Кавказа” (2008) və A.M.Əsgərova (2011) görə *Tephreseris caucasigenus* olmuşdur. *Senecio* cinsinin iki növü *Tephreseris* Rchb. cinsinə (*T. subfloccosa* və *T.caucasigenus*) keçmişdir.

Yuxarıda deyilənləri nəzərə alaraq və aparılmış tədqiqatlara əsasən müəyyən etmişik ki, Azərbaycan florasında hal-hazırda *Senecio* cinsi 16 növlə təmsil olunur və taksonomik tərkibi aşağıdakı kimidir:

Şöbə. *Magnoliophyta*
Sinif. *Magnoliopsida – Dicotyledons*
Sıra. *Asterales*
Fəsilə. *Asteraceae* Bercht. et J.Presl
Yarımfəsilə. *Asteroideae* Lindley
Triba. *Senecioneae* Cass.
Yarımtriba. *Senecionineae* Dumort.
Cins. *Senecio* L.
Seksiya 1. *Jacobaea* (Cass.) Dumort.
1. *S. grandidentatus* Ledeb.,
Seksiya 2. *Quadridentati* (Boiss.) Lomakin
2. *S. kubensis* Gsossh.
3. *S. lipsky* Lomakin
4. *S.taraxacifolius* (Bieb.) DC.
Seksiya 3. *Reniformes* (Boiss.) Menitsky et Konechn.
5. *S.caucasicus* (Bieb.) DC.
Seksiya 4. *Doria* (Rchb.) Godr.
6. *S.pseudoorientalis* Schischk.
7. *S.racemosus* (Bieb.) DC.
Seksiya

8. *S.platyphylloides* Somm. et Lev.
9. *S.pojarkoviae* Schischk.
10. *S. paucilobus* DC.
11. *S. othonnae* Bieb.
12. *S.lapsanoides* DC.
Seksiya 6. *Pseudooliganthi* Sofieva
13. *S. jacquinianus* Rchb.
Seksiya 7. Senecio
14. *S. vernalis* Waldst. et Kit.
15. *S. vulgaris* L.
16. *S. sosnovskyi* Sofieva

Senecio cinsnin 5 növü (*S. kubensis, S.caucasicus, S.pojarkoviae, S.lapsanoides, S. sosnovskyi*) Qafqaz endemikidir.

Aparılan tədqiqatlara görə xaçgülünün növləri arandan subalp qurşağına kimi Azərbaycanın bütün botaniki-cöğrafi rayonlarında yayılmışlar. Həyati formalarına görə onlar əsasən bir-, iki- və coxillik bitkilərdir.

Faydalı növləri arasında dərman, efir yağlı, yem əhəmiyyətli, bal verən, dekorativ görünüşə malik olanları var (Растительные…,1993; Мехтиева, Агаева, 2009; Ağayeva, Baxşaliyeva, 2011).

Cədvəl 1. Azərbaycan florasında *Senecio* L. növlərinin təftişi

"Флора Азербайджана" görə	**"Флора СССР" görə**	**С.К.Черепанова görə**	**"Конспект флоры Кавказа" görə**	**A.M.Əsgərov "Azərbaycan florasının konspekti"-nə görə**
1	**2**	**3**	**4**	**5**
S.racemosus (M.B.) D.C.	+	+	+	+
S.orientalis Willd.	S.pseudoorientalis Schischk.	+	+	+
S.propinquus Schischk.	+	+	S. jacquinianus Rchb.	+
S.caucasicus (M.B.) D.C.	Ligularia caucasicus (Bie	Dolichorrhiza caucasica (Bieb.) Galushko	S.caucasicus (Bieb.) DC.	+
S.lampsanoides D.C.	S.lapsanoides DC.	+	+	+
S.platyphyllus (M.B.) D.C.	S.platyphylloides Somm. et Lev.	Adenostyles platyphylloides (Somm. et Lev.) Czer.	S.platyphylloides Somm. et Lev.	S.rhombifolius (Adams.) Sch. Bip.
S.pojarkovae (Boiss.) Schischk.	+	+	+	+
S. paucilobus D.C.	+	+	+	+
S. othonnae M.B.				
S. subfloccocus Schischk.	+	Tephreseris subfloccosa (Schischk.) Czer.	+	+
S. caucasigenus Schischk.	+	Tephreseris caucasigenus (Schischk.) Czer.	+	+
S. kubensis A.Gsossh.	+	+	+	+
S. lipsky Lom.		+	+	+
S.taraxacifolius (M.B.) D.C.		+	+	+
S. grandidentatus Ledeb.		+	+	+
S. vernalis Waldst. et Kit.		+	+	+
S. sosnovskyi Sof.		+	+	+
S. vulgaris L.		+	+	+

Qeyd: "+" - işarəsi növləri ifadə edir.

ƏDƏBIYYAT

Ağayeva S.O., Baxşaliyeva K.F. Azərbaycanın Yaz xaçgülü bitkisinin efiryağlılığı və antifunqal xassələrinin öyrənilməsi. AMEA Botanika İnstitutu "Faydalı bitkilərdən istifadənin aktual problemləri" – beynəlxalq konfransın materialları, Bakı, 2011, s : 234-237.

Əsgərov A.M. (2011) Azərbaycan florasının konspekti. Əlavələr və dəyişikliklərlə: 1961-2009. Bakı, Elm, 202 S.

Вибе Е.И. (2000) Конспект трибы *Senecioneae* Cass. (*Asteraceae*) в Сибири. Turczaninowia, **3(4):** 58-63

Конспект флоры Кавказа. (2008) Санкт-Петербург – Москва, **III(I):** 469 С.

Мехтиева Н.П., Агаева С.О. Компонентный состав эфирного масла *Senecio vernalis* Waldst.et.Kit., интродуцированного ЦБС НАН Азербайджана. Вестник Киевского Националь-ного Университета им.Т.Щевченко, 2009, с.111-112.

Растительные ресурсы СССР: Цветковые растения, их химический состав, исполь-зования. (1993) Семейство *Asteraceae* (*Compositae*). СПб. **:** 172-180.

Флора Азербайджана. (1961) Изд-во АН Азерб. ССР, Баку, **VIII:** 328-344.

Флора СССР. (1961) Изд-во АН СССР, **XXVI:** 699-788.

Черепанов С.К. (1995) Сосудистые растения России и сопредельных государств (в пределах бывшего СССР). Мир и семья, Санкт-Петер-бург, 992 С.

Bentham G., Hooker J. D. (1873) Genera Plantarum V.2, part.1. Reeves et Co. and Wiliams et Norgate, London, 1279 pp.

Bremer K. (1994) *Asteraceae:* Gladistics and Classification. – Timber Press Portland Oregon, 752pp.

De Candolle A. P. (1838) Programus systematis naturalis Regni vegetabilis. V.6. Paris, - 687pp.

Cassini H. (1819) Sur la famile des Sunanthirues, contenant les caractures des tribus// J. de pus. Chim. Hist. Nat. Arts, **88:** 189

Hoffmann O. (1892) *Senecioneae* //A.Engler et K. Pranti (eds.) Die Naturlichen Pflanzenfamilien leipzing, h. **4(5):** 282-303.

Jeffrey C., Chen Y. L. (1984) Taxonomic studies in the tribe *Senecioneae* (*Compositae*) of Eastern Asia /Kew Bull, **39:** 205 – 454.

Jeffrey C. (1992) The tribe *Senecioneae* (*Compositae*) in the Mascarene islands with an annotated world check – list of the genera of the tribe //Kew Bull. **47:** 49-109.

Lessing C.F. (1832) Synopsis generum C*ompositarum* earumque dispositionis novae tentamen onographiis multarum capensium interjectis. Berolini, 473 pp.

Linneaus K. (1753) Species Plantarum. **II:** 1200 pp.

Род *Senecio* L. Флоры Азербайджана

С.О. Агаева, Э.Н. Новрузов, С.Дж. Мустафаева

Институт ботаники НАНА

В статье приводится таксономический состав рода *Senecio* L. – Крестовник флоры Азербайджана, а также сведения об изменениях и его современном состоянии.

Ключевые слова: *Senecioneae, Senecio, крестовник, триба, род, вид*

Genus *Senecio* L. in the Flora of Azerbaijan

S.O. Agaeva, E.N. Novruzov, S.J. Mustafayeva

Institute of Botany, ANAS

The article provides information on a taxonomic composition of the genus *Senecio* L.-*Adenostyles* in the flora of Azerbaijan, as well as its changes and the present state.

Key words: *Senecioneae, Senecio, Adenostyles, tribe, genus, specie.*